# Zəfər Gününün yaxın-uzaq əks-sədası







## Naxçıvan

**Naxçıvanda yenilməzlik simvolu olan Əlincəqalaya Zəfər yürüşü təşkil olunub. Şəhidlər xiyabanından başlanan yürüşdə şəhid ailələri, qazilər və ictimaiyyət nümayəndələri iştirak ediblər.**

Əllərində üçrəngli bayraq, dillərində qələbə şüarı, qəlblərində Vətən sevgisi ilə yüzlərlə soydaşımız Naxçıvan şəhərində yeni yaradılmış Zəfər Parkını da ziyarət etdikdən sonra Azərbaycanın yenilməzlik simvolu olan Əlincəqalaya doğru yola çıxıblar. Əlincəqalada əvvəlcə şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Çıxış edənlər şəhid ailələrinə vətənpərvər və qəhrəman övladlar yetişdirdiklərinə görə minnətdarlıq edib, qazilərə sağlamlıq arzulayıblar.

Şəhid valideynləri və qazi Əli Əlisoy çıxış edərək göstərilən qayğıya və yürüşün təşkilinə görə minnətdarlıqlarını bildiriblər. Yürüşdə iştirak edən balaca vətənpərvərlər qələbə əzmli şeirlər səsləndiriblər.

Sonra yürüş iştirakçıları Əlincəqalanın məğrur zirvəsinə qalxıb, şəhidlərin xatirəsinə yaradılmış "Şəhidlər zirvəsi"nin təqdimatında iştirak edib, bura xatirə lövhəsi vurublar.

## Gəncə

**Gəncə Şəhər İcra Hakimiyyətinin təşkilatçılığı ilə 8 Noyabr Zəfər Gününə həsr olunmuş "Zəfərin mübarək, Azərbaycan!" adlı möhtəşəm konsert proqramı baş tutub.**

Konsert proqramı Heydər Əliyev Park Kompleksində "Zəfər Tağı"nın önündə gerçəkləşib. Əvvəlcə Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov rəsmilərlə birgə ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edib, önünə əklil qoyub.



Böyük izdiham və coşqu ilə qarşılanan konsert proqramında Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Konsert proqramı zamanı müasir səhnədə quraşdırılmış ekranda Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun Vətən müharibəsində qazandığı tarixi Zəfərlə bağlı Gəncə Şəhər İcra Hakimiyyəti tərəfindən hazırlanmış videoçarx nümayiş etdirilib. Daha sonra üzərində işğaldan azad olunmuş ərazilərimizin adları əks olunan şarlar havaya buraxılıb.

Konsert proqramı möhtəşəm atəşfəşanlıqla yekunlaşıb.

## Sumqayıt

**Başdan-başa bayramsayağı bəzədilmiş Sumqayıt da Zəfər Günü ovqatına bələnmişdi. Tədbir iştirakçıları dəstə-dəstə, bütün kollektivlə və ailəlikcə Şəhidlər xiyabanına gələrək ölməz qəhrəmanların xatirəsi önündə ehtiramla baş əyiblər.**

Şəhidlərin əziz xatirəsinə ehtiram əlaməti olaraq "Sumqayıt Texnologiyalar Parkı" (STP) Şirkətlər Qrupu tərəfindən hazırlanmış "Zəfər ağacı" abidəsinin ətrafında da qələbəlik idi. Ölkəmizdə bir ilk olan bu ağacın budaqlarından solmayan yarpaqlar kimi şəhid adları yazılmış 3000 metal hərbi lövhəcik asılıb.



Küçələr, prospektlər, meydanlar sanki əyinlərinə bayraq geyinmişdi. Şəhərin Bayraq meydanında axşam başlanan Zəfər Günü konsertinə minlərlə sumqayıtlı toplaşmışdı. Azərbaycana, müzəffər Ali Baş Komandana, Şuşaya, qəhrəman övladlarımıza həsr olunmuş mahnıların sədaları dalğa-dalğa ətrafa yayılırdı.

Daha sonra möhtəşəm bayram atəşfəşanlığı oldu. Havada "çiçək açan", alışıb yanan fişənglər səmanı bir xeyli işıqlandırdı, Vətən sevgisinin qığılcımları gözlərdə əks olundu. Beləcə, Sumqayıtda Zəfər Günü gecəyarıyadək davam edib.

## Mingəçevir

**Azərbaycan xalqı uzun illərdən sonra işğal altında qalan torpaqlarının azad olunması sevincini yaşayır. 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi 44 gün ərzində şanlı qələbələrlə davam etdi. Hərb yolu ilə torpaqlarımızın böyük hissəsi azad olundu. Noyabr ayının 8-də Şuşa şəhərinin azad olunması, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun əsgər və zabitlərinin rəşadəti ilə həyata keçirildi. Bununla da tariximizə şanlı səhifə yazıldı.**

Noyabrın 8-də Mingəçevir Şəhər İcra Hakimiyyətinin təşkilatçılığı ilə Zəfər Günü münasibəti ilə silsilə tədbirlər həyata keçirildi. İlk olaraq müstəqilliyimizin qoruyucusu və memarı, ulu öndər Heydər Əliyevin abidəsi önünə gül-çiçək dəstələri qoyuldu. Sonra tədbir iştirakçıları Mingəçevir Şəhidlər xiyabanına gələrək, torpaqlarımızın bütövlüyü, azad olunması yolunda həlak olan bütün şəhidlərimizin məzarını ziyarət etdilər, gül-çiçək dəstələri qoydular və ehtiramlarını bildirdilər. Tədbirdə şəhər icra hakimiyyətinin başçısı İlham İsmayılov, hüquq-mühafizə orqanlarının rəhbərləri, ictimaiyyət nümayəndələri, şəhid ailələri cəmiyyətlərinin sədrləri, qazilər, YAP şəhər təşkilatının sədr müavini və mətbuat işçiləri iştirak edirdilər.

Ziyarətdən sonra Zəfər Gününə həsr olunmuş istirahət zonasına ictimai baxış keçirildi.

Axşam saatlarında Heydər Əliyev Meydanında Zəfər Gününə həsr olunan konsert və bayram atəşfəşanlığı təşkil olundu.

## Şuşa

**8 Noyabr Zəfər Günü münasibətilə Şuşa şəhərində möhtəşəm atəşfəşanlıq olub. Bayram atəşfəşanlığı Qarabağın, qədim Şuşanın səmasını al-əlvan rənglərə boyayıb.**




## Lənkəran

**Zəfər Günü ilə bağlı "Cənub mirvarisi" Lənkəranda silsilə tədbirlər keçirilib. 44 günlük Vətən müharibəsində qazandığımız tarixi uğur, haqq savaşında şəhidlərimizin, qazilərimizin və qəhrəman əsgərlərimizin göstərdikləri şücaət yeniyetmə və gənclər üçün əsl örnək kimi təqdim olunub.**

Noyabrın 8-də anadan olmuş Milli Qəhrəman Əsgər Əliyevin şəhərin mərkəzindəki abidəsi önündə də tədbir keçirilib. Əsgər 1995-ci ilin mart hadisələri zamanı mərdliklə vuruşub və həlak olub. Milli Qəhrəmanın atası Ələkbər Əliyev ən ali səviyyədə şəhidlərimizin ruhuna göstərilən diqqətdən razılığını ifadə edib.



Silsilə tədbirlərin yekunu kimi Lənkəran şəhər Mədəniyyət Mərkəzində "Zəfər Günü" adlı konsert proqramı keçirilib. Şəhid Vüsal Quliyevin və şəhid Taleh İsmayılovun övladlarının çıxışı tədbir iştirakçılarına duyğu dolu anlar yaşadıb. Konsert proqramında ünlü sənətkarlarla yanaşı, "Nənələr" Folklor Xalq Kollektivi, "Ay lolo" folklor rəqs ansamblı da musiqi töhfələri ilə çıxış ediblər.

Konsert proqramından sonra atəşfəşanlıq keçirilib.

## Ağdam

**Ağdam Muğam Mərkəzində Zəfər Gününə həsr olunmuş bayram tədbiri keçirilib. Azərbaycanın Dövlət Himni səsləndirilib, şəhidlərin və ulu öndər Heydər Əliyevin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Daha sonra 44 günlük Vətən müharibəsindən bəhs edən videoçarx nümayiş etdirilib.**

Ağdam Rayon İcra Hakimiyyətinin başçısı Vaqif Həsənov və Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov çıxış edərək tədbir iştirakçılarına təbriklərini çatdırıb, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında rəşadətli Azərbaycan Ordusunun tarixi Zəfərlə nəticələnən Qələbəsindən, ərazi bütövlüyümüzün bərpasından, azad edilmiş ərazilərdə həyata keçirilən yenidənqurma və quruculuq işlərindən, infrastruktur layihələrindən, şəhid ailələrinə, qazilərə, həmçinin müharibə iştirakçılarına göstərilən dövlət qayğısından geniş bəhs ediblər.

Çıxışlardan sonra tədbirin bədii hissəsi başlayıb. Zəfər Günü ilə əlaqədar olaraq Quzanlı qəsəbəsinin mərkəzi meydanında atəşfəşanlıq olub.



## Tovuz

**Milli Məclisin Mədəniyyət Komitəsinin sədri Qənirə Paşayeva 8 Noyabr Zəfər Günündə Tovuzda şəhid ailələri və qazilərlə görüşüb.**

Onları Zəfər Bayramı və 9 Noyabr Bayraq Günü münasibətilə təbrik edən Q.Paşayeva, ilk növbədə, şəhid ailələrinin, qazilərin yad edilib, təbrik edilməsini xalqımızın qədirbilənliyi və minnətdarlığı kimi xarakterizə edib: "Sizlərə olan mənəvi borcumuz ömür boyu bitməyəcək. Bayramınız mübarək olsun!"



Q.Paşayeva şəhid ailəsi üzvlərini, qaziləri dinləyib, hər birinin toxunduğu mövzulara ətraflı şərh verib, onları maraqlandıran sualları cavablandırıb. O, həmçinin Tovuzda Vətən müharibəsi şəhidlərinin ailələrinin, qazilərin və müharibə iştirakçılarının qatıldığı 8 Noyabr Zəfər Gününə həsr olunmuş bayram tədbirində iştirak edib.

Tovuz Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə "Ayan Palace" hotelində bayram tədbiri keçirilib. Çıxış edənlər böyük Zəfərə aparan yoldan söhbət açıb, Vətən müharibəsində qanından, canından keçən igidlərimizin heç zaman unudulmayacağını, şəhid ailələri və qazilərin daim qayğı ilə əhatə olunacaqlarını bildiriblər.

## Xaçmaz

**Xaçmazda Zəfər Günü bayram konserti və atəşfəşanlıqla qeyd olunub. Heydər Əliyev adına Xaçmaz rayon Mədəniyyət Mərkəzində təşkil olunan "Azərbaycan, Zəfərinlə ucaldın!" adlı bayram tədbirində şəhid ailələri, qazilər və ictimaiyyət nümayəndələri iştirak ediblər.**

Xaçmaz Rayon İcra Hakimiyyəti başçısı Elnur Rzayev Ali Baş Komandan İlham Əliyevin böyük cəsarəti və əzmkarlığı sayəsində Vətən müharibəsində Azərbaycan Ordusunun qazandığı şanlı Qələbədən söz açıb, Zəfər Günü münasibətilə təbriklərini çatdırıb. Çıxışların ardınca tanınmış incəsənət nümayəndələrinin iştirakı ilə bayram konserti təqdim olunub. Vətənpərvərlik, qələbə duyğuları və coşqu ilə müşahidə olunan konsert rayon sakinləri tərəfindən böyük maraqla qarşılanıb.

Sonda iştirakçılar Zəfər tariximiz haqqında videoçarxa baxıblar. Bayram tədbirinə möhtəşəm atəşfəşanlıqla yekun vurulub.

## Zaqatala

**8 Noyabr Zəfər Günü Zaqatala rayonunda da bayram əhvali-ruhiyyəsi ilə qeyd edilib. Rayon rəhbərliyi və ictimaiyyətin nümayəndələri əvvəlcə şəhər qəbiristanlığında şəhid məzarlarını və Şəhidlər xiyabanını ziyarət edib, Zəfər kompleksi önünə gül dəstələri düzüblər.**

Sonra Vətən müharibəsi şəhidlərinin xatirəsinə həsr olunmuş lövhəyə baxış olub.

Heydər Əliyev Mərkəzində keçirilən "Qarabağ Azərbaycandır!" adlı tədbirin iştirakçıları əvvəlcə foyedə yeniyetmə və gənc rəssamların düşmən üzərində şanlı Zəfərə və qəhrəman şəhidlərimizə həsr etdikləri rəsm əsərlərindən ibarət sərgi ilə tanış olublar.

Bayram tədbiri rayonun incəsənət ustalarının hazırladığı rəngarəng konsert proqramı ilə davam edib.

Zəfər Gününə həsr olunan silsilə tədbirlər çərçivəsində həmin gün Lahıc kəndində "Şəhidlər xiyabanı" xatirə kompleksinin də açılışı olub.

**("Xalq qəzeti"nin və AZƏRTAC-ın müxbirlərinin materialları əsasında hazırlanıb)**